Bülleten No: 23 / noyabr 2014

Elektron Hökumət Portalı
your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

NOYABR 2014

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



ISO 9001 SYSTEM CERTIFICATION SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# "Elektron Hökumət" portalında yaradılmış "Əks əlaqə" bölməsi fəaliyyətə başladı




"Elektron Hökumət" portalının funksionallığının, e-xidmətlərin çeşidinin və keyfiyyətinin artması ilə yanaşı e-xidmətlərdən istifadə sayı da sürətlə artmaqdadır və bu günə qədər 5,5 milyon dəfədən çox e-xidmətlərə müraciətlər edilib. Portalın populyarlığının və istifadəçi sayının kəskin artması ilə eyni zamanda vətəndaşlardan daxil olan müraciətlərin, irad, şikayət və təkliflərin sayı da artmaqdadır.

Bunları nəzərə alaraq portalın operatoru tərəfindən e-xidmətlərdən istifadə zamanı yaranan suallarla bağlı vətəndaşlar tərəfindən xidmət təminatçısı ilə əlaqə yaradılması, təklif, şikayət və s. xarakterli müraciətlərin göndərilməsi üçün "Əks əlaqə" adlı xüsusi bölmə hazırlanmışdır. Dövlət qurumları vətəndaşlar tərəfindən e-xidmətlərlə bağlı göndərilən müraciətləri bu bölmə vasitəsilə operativ şəkildə cavablandıra və xidmətdən istifadə zamanı baş verən problemlərdən vaxtında xəbər tuta biləcəklər. Vətəndaşlar isə istənilən elektron xidmət ilə bağlı müraciətləri portal üzərindən xidmət təminatçısına ünvanlanlaya, verilən cavabları izləyə və qiymətləndirə biləcəklər.

5 noyabr 2014-cü il tarixində "Elektron hökumət" portalının operatoru Məlumat Hesablama Mərkəzində dövlət qurumlarının "Əks əlaqə" xidməti üzrə təyin etdiyi məsul əməkdaşlar üçün treyninq keçirilmişdir. Treyninqdə "Elektron hökumət" portalında yaradılmış yeni funksiyalar, e-xidmətlər və yaxın zamanda planlaşdırılan yeni elektron xidmətlər, portalın funksionallığının inkişafi və s. yeniliklər barədə iştirakçılara geniş məlumat verildi. Daha sonra "Əks əlaqə" bölməsindən istifadə üçün hazırlanmış video-təlimat iştirakçılara təqdim edildi.

Məsul şəxslərin sistemə autentifikasiya edilmələri üçün onların e-poçt ünvanları və FİN-ləri qeydiyyata alındı. Qeyd olundu ki, məsul şəxslər "Əks əlaqə" bölməsinin idarəedici panelinə elektron imza kartı, mobil imza və portalın təqdim etdiyi kod-parol vasitəsilə daxil ola biləçəklər.

Yeni yaradılan bu xidmət vasitəsilə qurumlar istədikləri dövr (gün, həftə, ay və s.) üzrə özlərinə aid e-xidmətlərdən istifadə və istifadəçi sayı barədə statistik məlumatları da əldə edə biləcəklər.

Qeyd edək ki, noyabr ayının 1-dən başlayaraq "Əks əlaqə" xidməti vətəndaşların istifadəsinə verilmişdir və həmin tarixdən sonra vətəndaşlardan daxil olan müraciətlər, onların cavablandırılması barədə aşağıdakı statistik məlumatlar online rejimdə portalda qurumlar üzrə yerləşdiriləcək və aylıq Elektron Hökumət Bülletenlərində dərc ediləcək:

- Dövr (ay, rüb, il və s.) ərzində daxil olan müraciətlərin sayı;
- Həmin müraciətlərdən cavablandırılanların sayı;
- Təkrar daxil olan müraciətlərin sayı;
- Cavablandırılmayan müraciətlərin sayı;
- Verilən cavablardan vətəndaşları qane edən cavabların sayı (bu vətəndaşların aldıqları cavablara portalda etdikləri qeydlə müəyyən ediləcək).

# Azərbaycan Dövlət Neft Akademiyasında "Elektron Hökumət" mövzusunda maarifləndirici təlim keçirildi

"Elektron Hökumət" portalının operatorunun təşəbbüsü ilə 06.11.2014-cü il tarixdə Azərbaycan Dövlət Neft Akademiyasında"Elektron yeniliklərə uyğunlaşa bilirikmi?!" başlığı altında "Elektron Hökumət" quruculuğu istiqamətində təlim keçirilmişdir. Təlimin dinləyiciləri gələcəyimizin təminatçıları olan gənc tələbələr idi. Mütəxəssislər tələbələrə elektron xidmətlərin sosial həyatdakı rolundan bəhs edərək "Elektron Hökumət" portalı və vətəndaşlara təqdim olunan e-xidmətlər barədə prezentasiya üzrə təfsilatlı informasiya verdilər. Elektron xidmətlərin gələcək prioritetləri və bu istiqamətdə gənclərin üzərinə düşən vəzifələr ətraflı şərh edildi, elektron sənəd mübadiləsinin əhəmiyyəti müzakirə edildi.

Təlimdə, həmçinin "E-imza" infrastrukturu haqqında ətraflı məlumat verildi.

E-imza vasitəsilə kargüzarlıq işinin təşkilinin kağız üzərində aparılan işlə müqayisəli təhlili aparılaraq e-imzanın üstünlükləri izah olundu. Tələbələrə prezentasiya əsasında "Elektron hökümət" portalı (www.e-gov.az) və E-imza saytı (e-imza.az) üzrə praktiki biliklər aşılandı.

Təlim sual-cavab əsasında davam etdirildi. Tələbələrin "Elektron Hökumət" quruculuğu barədə rəyləri, gözləntiləri öyrənildi.

Bu günkü gənclərin ölkənin ictimai-siyasi həyatında rolu danılmazdır. Təlimdə ölkəmizin tərəqqisi naminə qarşıya qoyulmuş vəzifələri həyata keçirəcək bacarıqlı gənclərin say çoxluğu müşahidə edilirdi. Düşünürük ki, fəal gəncliyimiz "Elektron Hökümət" infrastruktrunun gələcək inkişaf modelində aparıcı rol oynayacaqlar.

Bu cür tədbirlərin gələcəkdə digər ali təhsil müəssisələrində də keçirilməsi planlaşdırılır.

www.e-gov.az

# 2014-cü ilin oktyabr ayı ərzində "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə statistikasına əsasən ən çox istifadə olunan 5 qurum




Ötən ayın statistik məlumatlarında olduğu kimi bu ay da e-xidmətlərin istifadə sayına görə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi birinci yeri tutmaqdadır. Nazirliyin 6 xidməti ən aktual xidmətlər sırasındadır. "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi", "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi " kimi elektron xidmətlər ölkədə əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınmasına qoyulan tələblə əlaqədar olaraq artmış, ən aktual elektron xidmətlər sırasına yüksəlmişdir.

Ümumilikdə, ƏƏSMN-in təqdim etdiyi 6 xidmət üzrə 302191 dəfə istifadə qeydə alınmışdır.
Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin 43 xidməti üzrə 137019 dəfə istifadə qeydə alınmışdır. "Telefon nömrəsi üzrə axtarış", "Rabitə və Kommunal xidməti haqların internet vasitəsilə ödənilməsi", "Mobil cihazların İMEİ kodunun yoxlanılması və qeydiyyata alınması" kimi xidmətlər ən çox istifadə olunanlar sırasındadır.
Dövlət Sosial Müdafiə Fondunun təqdim etdiyi "Siğortaolunanın onlayn uçota alınması", "Siğortaolunanlara məlumatın verilməsi", "Siğortaedənin uçot nömrəsinin öyrənilməsi" xidmətləri ilə yanaşı 17 elektron xidmət aktual istifadə olunanlar sırasındadır. Ümumilikdə, 65131 dəfə istifadə qeydə alınmışdır.
Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin 39 xidməti üzrə 7188 dəfə istifadə qeydə alınmış və ən çox müraciət olunan qurumlar sırasında 4-cü yeri tutur.
5-ci yerdə Prezident Yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 6 xidmət üzrə 5774 dəfə istifadə qeydə alınmaqla, aktual qurumlar sırasında yer alır.

# Portalın operatorunun nümayəndələri "Elektron Hökumət" üzrə ixtisasartırma kurslarında mühazirəçi qismində iştirak ediblər



MHM-in nüməyəndə heyəti 03.11.2014-07.11.2014-cü il tarixlərində Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasında aparılan "Elektron Hökumət" ixtisasartırma kurslarında mühazirəçi qismində iştirak etmişdir. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının təşəbbüsü ilə 21 İcra Hakimiyyəti nümayəndələrinə "Elektron Hökumət" istiqamətində konkret proqram əsasında təlimlər keçirilib. Təlimlərin birinci günündə Rabitə və Yüksək Texnologiyalar Nazirinin müavini Elmir Vəlizadə "Azərbaycanda İKT və informasiya cəmiyyətinin quruculuğu" mövzusu üzrə çıxış etdi.
Sonrakı üç gün ərzində MHM-in nümayəndələri Elektron Hökumət, onun infrastrukturu, formalaşdırılması və inkişaf mərhələləri, beynəlxalq təcrübə, inkişaf göstəriciləri, gələcək perspektivlər, mobil hökumət, e-imza, dövlət reyestrləri və s. üzrə prezentasiya əsasında ətraflı məlumat verdilər. Həmçinin, "Elektron Hökumət" portalı (www.e-gov.az) və E-imza (www.e-imza.az) saytları üzrə sual-cavab şəklində açıq müzakirələr aparıldı. Dinləyicilərə ödənişsiz e-imza kartları verilməsi üçün xüsusi kuponlar paylanıldı və e-imzanın onlayn sifariş mərhələləri əyani şəkildə izah edildi, hər bir iştirakçının online ərizə formalarını doldurulması təmin edildi. Təlimin növbəti günlərində kurs dinləyicilərinə e-imza kartları və kart oxuyucuları hədiyyə edildi, Elektron Hökumət Bülletenləri paylanıldı. "Elektron Hökumət" portalında olan e-xidmətlər əyani şəkildə test edilərək iştirakçılara nümayiş etdirildi. Təlimlərin son günündə isə iştirakçılara "Elektron imza" infrastrukturu barədə prezentasiya üzrə geniş məlumat verildi.
Təlimlərin əsas məqsədi regionlar üzrə İcra Hakimiyyəti nümayəndələrinə "Elektron Hökumət" infrastrukturu, e-xidmətlər barədə ətraflı informasiya vermək və praktiki bacarıqların aşılanmasıdır. Təlimin əsas gözləntiləri "Elektron Hökumət"in inkişaf yolunda vətəndaşlara bələdçilik edə biləcək kadrların hazırlanması, həmçinin, "Elektron Hökumət" infrastrukturunun sistemli şəkildə genişləndirilməsinin əsas meyarı olan istifadəçi marağını formalaşdırmaqdır.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi xidmətlər ilk onluqda liderliyi saxlamaqda davam edir

Azərbaycan Respublikası
Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi

Azərbaycan Prezidentinin 2014-cü il 3 fevral tarixli Fərmanına əsasən, cari ilin 1 iyulundan tətbiqinə başlanılan əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması işəgötürənlərin və işçilərin diqqətini "Elektron Hökümət" portalına, bilavasitə "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" xidmətinə və bununla əlaqəli digər xidmətlərə yönəltdi.

Qeyd olunan e-xidmət vasitəsilə əmək müqavilələrinin qeydiyyata alınması avtomatlaşdırılmış və qeydiyyata alınan müqavilələr Elektron İnformasiya Sistemində toplanılmışdır. "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" xidməti sayəsində işəgötürülən işçilərin imzalamış olduqları əmək müqaviləsini şəffaf şəkildə əldə edə bilir, bu da istifadəçi məmnuniyyətini təmin etməklə yanaşı vətəndaşların "bürokratiya qorxusuna" son qoyur.

Sistemin yeni tətbiq edildiyi bütün müəssisələr "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" xidmətindən istifadəni öyrənməyə tələsmiş, qısa vaxt ərzində e-imza sertifikatlarını əldə etməyə çalışmışlar. ƏƏSMN tərəfindən "Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemindən istifadə üzrə metodiki göstərişlər" hazırlanaraq istifadəçilərə təqdim edilmişdir.

İstifadəyə verildiyi gündən bu günə qədər "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" xidmətindən 1 877 634, "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" xidmətindən isə ~176 000 dəfə istifadə edilmişdir (2 053 596 dəfə). Nəzərə alsaq ki, bu günə elektron xidmətlərdən istifadə üçün müraciətlərin ümumi sayı 5597818 ədəddir, kütlə nisbəti ilə ümumi müraciətlərin təxminən 30%-ni əhatə edən ƏƏSMN tərəfindən təqdim edilən bu iki xidmətin elektron xidmətlərin tətbiqi, istifadə və hətta təşviqində böyük əhəmiyyəti vardır.

ƏƏSMN mütəxəssisləri portalın ümumi funksionallıqlarını yenidən qurmağa vaxt sərf etmədən, təkrarçılıqla yol vermədən,vaxt, vəsait və insan kapitalına qənaət edərək, diqqətlərini əsas işlərinə yönəldərək qısa bir zamanda böyük bir uğur əldə edə bildilər.

Qurum tərəfindən "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" xidməti vasitəsilə vətəndaşa işəgötürənlə onun arasında bağlanılmış əmək müqaviləsi ilə tanış olmaq, onu çap etmək imkanları da təqdim olunmuşdur. Bu gün hər bir vətəndaş bu sənədi çap edərək müxtəlif qurumlara təqdim etmək imkanlarına malikdir. İşəgötürən tərəfindən əmək müqaviləsi bildirişlərinin sistemə işləndikdən və qeydiyyata alındıqdan dərhal sonra, işçilər bu barədə müvafiq arayış ala bilirlər. Mövcud bir çox informasiya sistemlərindən məlumatların alınması üçün, əvvəlcə elektron müraciət olunması və bir neçə günlük zaman fasiləsindən sonra bu haqda bildirişin alınmasına alışmış vətəndaş daha bir yeniliyin şahidi oldu.

Bu isə, yenicə yaradılan informasiya sisteminin birbaşa vətəndaşa xidmətə yönəlik sistem olduğunu bir daha göstərir və informasiya sisteminin hazırlanmasının əsas məqsədinin işçilərin sosial müdafiəsinə yönəlmiş növbəti bir addım olduğunu təsdiq edir.

Xidmətdən istifadə zamanı sənədlərin elektron imza ilə təsdiqlənməsi, imza sertifikatlarında möhür haqda məlumat, təsərrüfat subyekrləri haqda məlumatların istənilməsi, mövcud informasiya sistemlərinin, onların formalaşdırılması və istifadəsi qaydalarının, qarşılıqlı əlaqə və informasiya mübadiləsi aparılması formalarının bir daha nəzərdən keçirilməli olduğu zərurətini göstərmiş, ölkədə elektron imza sertifikatlarının daha geniş miqyasda istifadə həcmini artırmışdır. İnformasiya sisteminin tətbiqindən öncə ƏSSMN tərəfindən RYTN-ə elektron imza sertifikatlarının qiymətlərinə yenidən baxılması üçün müraciət olunmuş, layihənin sosial əhəmiyyəti nəzərə alınaraq müraciət müsbət həllini tapmış və elektron imza sertifikatlarının qiymətləri proqnoza uyğun olaraq aşağı salınmışdır.

Ölkə vətəndaşlarının hər birinin bu gün işəgötürən və ya işçi olduğu nəzərə alınarsa, "Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin" son illər tətbiq olunan informasiya sistemləri içərisində ən əhatəli, miqyaslı və vacib əhəmiyyətli informasiya sistemlərindən biri olduğunu qeyd etmək olar.



www.e-gov.az

# Artıq "Unibank" və "Accesbank" da krediti elektron arayış əsasında verməyə başladılar

"Elektron Hökümət" portalının təqdim etdiyi "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" elektron xidməti portalın son zamanlar ən çox maraq cəkən xidmətlərindən biridir.

Məlum olduğu kimi, sentyabr ayından başlayaraq "Bank of Baku" istehlak kreditlərinin verilməsində bu arayışlardan maksimum yararlanmağa başlamışıdr.  Bu təcrübə digər bankların da marağına səbəb olmuşdur. Hal hazırda 10-a yaxın bank işlərini bu istiqamətdə qurmağa çalışır və MHM-lə müqavilələr imzalanmışdır.

Oktyabr ayında,  "Elektron Hökümət" portalı ilə əməkdaşlıq sayəsində "Unibank" Kommersiya Bankı ASC (Unibank)  və "Accesbank"  kredit rəsmiləşdirilməsi üçün elektron arayış xidmətindən istifadəyə başlamışdır. Müqavilə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi və müvafiq banklar arasında imzalanıb. Müqavilə şərtlərinə əsasən bankların mərkəzi ofisində və filiallarında xidmətin tətbiqinə başlanılır.

"Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" xidməti vətəndaşlara dövlət və özəl təşkilatlar tərəfindən tələb olunan arayışların elektron şəkildə əldə edilməsi mərhələsini sadələşdirmək məqsədi üçün yaradılmışdır.

Banklara müraciət edən zaman vətəndaş bu xidmətdən istifadə edərək banka getmədən onlayn rejimdə portala daxil olub, kredit almaq və digər məsələlər üçün öz elektron arayışını banka təqdim etmək imkanını əldə edəcək. Xidmətdən istifadə etmək üçün vətəndaş Elektron Hökumət Portalında autentifikasiyadan keçməlidir. İstifadəçi autentifikasiyadan keçdikdən sonra xidmətdən yararlana biləcək və bu zaman portal artıq öz istifadəçisini identifikasiya etdiyi üçün vətəndaşın fərdi məlumatları elektron arayışda avtomatik olaraq öz əksini tapacaq. Müştəri fərdi məlumatlar üzrə elektron arayışı evindən, iş yerindən və yaxud bankda bu layihə üçün quraşdırılmış xüsusi kompüter vasitəsilə də göndərə bilər.

Qeyd edək ki, elektron xidmətə daxil olunan zaman 7 dövlət qurumu tərəfindən vətəndaş haqqında məlumatlar təqdim olunacaq. Gələcəkdə daha cox qurumların məlumatları təqdim etməsi nəzərdə tutulub.

Elektron arayış sisteminin istifadə edərək vətəndaşlar bir sıra üstünlüklər əldə etmiş olacaq:

-Sutkanın 24 saatı, günün istənilən vaxtında banka onlayn kredit alma müraciətinin göndərilməsi imkanı;

-Vətəndaşlar üçün vaxt itkisini aradan qaldırılması və rahatlığın təmin edilməsi;

-Bürokratik proseslərin ləğv edilməsi;

-İşlədiyi müəssisədən arayışın alınmasına zərurətin yaranmaması;

-Çalışdığı müəssə rəhbərliyinin işçinin kredit götürməsi haqqında məlumatlandırılmasına ehtiyacın olmaması.

Xidmət "Elektron hökumət" portalında 17.06.2014-cü il tarixdən istifadəçilərə təqdim edilib və keçən müddət ərzində ən çox istifadə edilən xidmətlərin ilk onluğunda qərarlaşıb.

# "Elektron Hökumət" portalının operatoru Məlumat Hesablama Mərkəzinin nümayəndələri "Online Media 2014" təlimində iştirak etmişdir

27 oktyabr 2014-cü il tarixində, Multimedia Mərkəzi tərəfindən AMEA İnformasiya Texnologiyaları İnstitutunda jurnalistlər üçün "Onlayn Media 2014" Təlimləri başlayıb. Təlimlərin əsas məqsədi İKT-nin müxtəlif sahələrdə tətbiqindən, ölkədə İnformasiya Cəmiyyəti quruculuğundan yazan jurnalistlərin hazırlığına köməklik göstərməkdir.

Tədbirdə RYTN İnformasiya Cəmiyyətinin inkişafı şöbəsinin əməkdaşı Kamal Məmmədov, AMEA İTİ-nin Tədrsi Mərkəzinin rəhbəri Rəsmiyyə Mahmudova və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəsmisi Ulduzə Xəlilova çıxış etmiş, ölkədə İKT-nin, elektron hökumət quruculuğun inkişafı istiqamətində xeyli işlərin görüldüyünü və bu istiqamətdə işlərin daha da sürətlənməsi üçün, İKT-dən yazan jurnalistlər şəbəkəsinin formalaşmasının eləcə də, adı çəkilən Layihə əhəmiyyəti barədə informasiya verilib.

"Elektron Hökumət" portalı operatorunun məsul nümayəndələri "Elektron Hökümət" portalı, e-imza, "Dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrləri" barədə prezentasiya üzrə geniş məlumat vermiş, ölkədə Elektron Hökumət quruculuğu sahəsində görülən işlər, mövcud durum və icrası nəzərdə tutulan layihələr haqqında çıxış etmişlər.

# Elektron Hökumətin formalaşdırılmasında portal operatorunun rolu



Virtual idarəçilik sistemi kimi "Elektron Hökumət"in əsas vəzifəsi vətəndaşların ictimai xidmətlərdən istifadə səmərəsini artırmaqdır. "Elektron xidmətlər" cəmiyyətin gündəlik həyatını virtual məkana daşıyarkən canlı məmuru virtual məmurla əvəz edərək vətəndaşlara aşağıdakı üstünlükləri təqdim edir:

• Vətəndaş növbə məcburiyyətindən azad olarkən vaxtına qənaət edir;

• Olduğu yerdən, məkan və zaman qayğısı çəkmədən sosial problemlərini həll edə bilir;

• Bu üstünlüklərin sahibi olaraq, köhnə bürokratik əməliyyatlardan azad olur, bunların hamısını hər hansı məmur olmadan, özü şəffaf və məlumatlı şəkildə icra etdiyi üçün daxili məmnunluq və rahatlıq hissi keçirir.

"Elektron Hökumət" portalının operatorunun başlıca vəzifəsi yuxarıda qeyd olunanları reallaşdırmaqdan ibarətdir. Virtual cəmiyyətin formalaşdırılmasında "Elektron Hökümət" portalının rolu həddən artıq çoxşaxəlidir.

İlk növbədə portalın operatoru Nazirlər Kabinet tərəfindən təsdiq edilmiş bütün e-xidmətlərin portala inteqrasiya ediməsi üçün mütəmadi olaraq qurumlarla iş aparır. Əlbəttə ki, portalın operatorunun bu istiqamətdə fəaliyyəti qurumlar tərəfindən təqdim olunan xidmətləri portala inteqrasiya etməklə kifayətlənmir. MHM texniki qoşulmaların, serverlərin və şəbəkənin təhlükəsizliyini təmin etməklə yanaşı daima sosial tələbat olan sahələri, xidmətləri öyrənir. Bu xidmətlərin maksimum sadələşdirilərək elektron şəkildə vətəndaşlara təqdim olunması barədə təkliflər irəli sürür, ictimai sferanın sosial tələbatlarını obyekt seçərək vətəndaşlara çoxfunksiyalı portal təqdim edir.

Hal-hazırda fəaliyyətdə olan "Elektron Hökumət" portalını ilk versiyası ilə müqayisə etsək, əlavə edilən bir sıra istifadəçi yönümlü funksiyaların əhəmiyyətinin şahidi olarıq:

• Qeydiyyatsız xidmətlər, qeyri-rezident, sahibkar, vətəndaş kimi qrupların əlavə edilməsi;

• "Mənim xidmətlərim" bölməsinin yaradılması;

• "Əks Əlaqə", "Müraciətlər" bölməsinin yaradılması;

• Tezliklə təhvil veriləcək "Rəsmi Yazışmalar" bölməsinin hazırlanması;

Bu funksiyaları təqdim edərkən operatorun əsas məqsədi "Elektron hökumət" portalını istifadəçilər üçün daha cəlbedici və əlverişli etmək, doğma virtual sosial xidmət məkanını formalaşdırmaqdır.

Cari ilin oktyabr ayından başlayaraq bütün dövlət qurumlarının İnformasiya ehtiyatları və sistemlərinə MHM-in işçi qrupu tərəfindən monitorinqlər keçirilir, məlumat bazaları, onların imkanları öyrənilir. Mütəxəsisslərin yerindəcə real vəziyyətlə tanışlığı, real vəziyyəti dəyərləndirməyə imkan yaradır. Məlumatların elektronlaşma faizi öyrənilir, yerindəcə təkliflər və tövsiyyələr verilir. Hər bir informasiya sisteminin istismarını təmin edən mütəxəssislərlə şəxsi tanışlıq da yaxın gələcəkdə öz sözünü deyəcəkdir. Monitorinqin aparılması həmçinin qurumlarda elektron hökumətin, portalın təbliğ təşviqat rolunu da həyata keçirir. Sonda nəticələr yekunlaşdırılaraq "Elektron hökumət" portalı üçün konkret təkliflər hazırlanacaqdır.

Eyni zamanda portalın operatoru tərəfindən beynəlxalq təcrübə öyrənilir, yeni təcrübələr portala tətbiq edilir. Bu yaxında MHM-in nümayəndələri İstanbulda, Astanada, Florensiyada keçirilən elektron hökumət məsələlərinə həsr olunmuş sərgi və konfranslarda iştirak ediblər. Əməkdaşların əldə etdikləri təcrübələr öyrənilir və portalın gələcək fəaliyyətinin təşkilində tətbiq edilməsi nəzərdə tutulur.

Eyni zamanda Elektron Hökumət Portalının təcrübəsi də, böyük maraqla qarşılanır və öyrənilir. Türkiyədə sərgidə olarkən Türkiyə elektron hökumət portalının əməkdaşları ilə görüşlər keçirilmiş, portalın funksionallıqları, xüsusən də "mənim xidmətlərim" funksionallığı böyük maraqla qarşılanmışdır.

E-arayışların tətbiq edilməsi üzərində işlər davam etdirilir. Tezliklə, "Elektron Hökumət" portalı vasitəsilə aşağıdakı arayışların vətəndaşlara elektron şəkildə təqdim edilməsi də mümkün ediləcək:

- Yaşayış yeri barədə elektron arayışın verilməsi
- Diplom barədə elektron arayışın verilməsi
- Rabitə xidmət borclarının olmaması barədə elektron arayışın verilməsi
- Kommunal xidmət borclarının olmaması barədə elektron arayışın verilməsi
- Abituriyentin ali məktəbə daxil olması barədə elektron arayışın verilməsi (Səfərbərlik Xidmətinə vermək üçün)
- İş yeri və əmək haqqı barədə elektron arayışın verilməsi
- Sağlamlıq barədə tibbi elektron arayışın verilməsi
- Pensiya kapitalı barədə elektron arayışın verilməsi
- Portal vasitəsilə bəzi etibarnamələrin verilməsi
- Şəxsiyyət vəsiqəsinin elektron süräti

Portalın operatoru mütəmadi olaraq "Elektron Hökumət" portalının təbliğat-təşviqat kompaniyaları, seminarlar, maarifləndirmə xarakterli tədbirlər həyata keçirir, "Elektron Hökumət" quruculuğunda öz üzərinə düşən vəzifələri həyata keçirərək, virtual cəmiyyətin yaranma və inkişaf prosesini sürətləndirir.

www.e-gov.az

# Bakıda DSMF-nin ev sahibliyi ilə beynəlxalq tədbir keçirilib

Oktyabrın 22-də Bakıda “Hilton Bakı” otelində “Sosial müdafiə sahəsində elektron xidmətlər: keyfiyyət və miqyasın genişləndirilməsi” mövzusunda Dövlət Sosial Müdafiə Fondu (DSMF) və Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) birgə təşkilatçılığı ilə beynəlxalq seminar öz işinə başlayıb.

Keçirilən 2 günlük tədbirdə Beynəlxalq Əmək Təşkilatının, Dünya Bankının və digər beynəlxalq təşkilarların, 15 Avropa, MDB və Baltikyanı dövlətin sığorta-pensiya qurumlarının, Azərbaycan Respublikasının dövlət orqanlarının rəhbər və səlahiyyətli şəxsləri, habelə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində beynəlxalq ekspertlər iştirak ediblər.

Fondun sədri müasir şəraitdə dünyada qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət almasında sürətlə inkişaf edən və yayılan informasiya və kommunikasiya texnologiyalarının (İKT) mühüm əhəmiyyətindən danışaraq qeyd edib ki, IKT-dən geniş istifadə olunmasının ölkələrin inkişafında müstəsna rolu danılmaz reallıqdır.

Müasir şəraitdə İKT-nin və elektron xidmətlərin sosial müdafiə sistemlərinin müasirləşdirilməsinə, bu sahədə davamlı innovativ tədbirlərin, genişmiqyaslı proqramların həyata keçirilməsinə, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına təsiri daim artmaqdadır.

Fond sədri Azərbaycanda İKT-nin davamlı və hərtərəfli inkişafı istiqamətində məqsədyönlü, kompleks və ardıcıl fəaliyyət həyata keçirildiyini qeyd edərək ölkəmizin bu sahədə mühüm nailiyyətlər əldə etdiyini diqqətə çatdırıb.

BSTA-nın nümayəndəsi Raul Ruggia-Frick söyləyib ki, elektron xidmətlərin tətbiqi dünya səviyyəsində sığorta-pensiya qurumları tərəfindən davamlı fasiləsiz xidmətlərin səmərəliliyi və effektivliyinin artırılmasını təmin etsə də, elektron xidmətlərin keyfiyyət və miqyasının genişləndirilməsi, bununla yanaşı mobil xidmətlərdən geniş istifadə və digər bu kimi məsələlərdən qaynaqlanan vacib çağırışları da gündəmə gətirir. Qeyd edilən məsələlərin beynəlxalq seminarın işində ətraflı müzakirə olunacağı nəzərdə tutulur. BSTA nümayəndəsi Azərbaycanda İKT və dövlət idarəçiliyində elektron xidmətlərin tətbiqi sahəsində görülən işlərdən, əldə olunan uğurlardan məlumatlı olduqlarını bildirərək vurğulayıb ki, tədbir həmçinin Azərbaycanın bu sahədəki təcrübəsi ilə tanışlıq məqsədi daşıyır.

Beynəlxalq seminarın “BSTA təlimatları vasitəsilə e-xidmətlərin həyata keçirilməsi” mövzusundakı ilk sessiyasında BSTA nümayəndəsi Assosiasiyanın İKT sahəsində təlimatları, elektron xidmətlərin tətbiqi üzrə tövsiyələri, Belçika nümayəndəsi öz ölkəsində sosial sektorda tətbiq olunan elektron xidmətlərlə bağlı geniş təqdimatlarla çıxış edərək tədbir iştirakçılarını əhatə olunan mövzularla bağlı məlumatlandırıblar. Sonra sessiya Beynəlxalq Əmək Təşkilatının və DSMF-nin nümayəndələrinin də qatıldığı ətraflı müzakirələrlə davam edib.

Oktyabrın 23-də seminar öz sessiyalar üzrə işini davam etdirib.

# “Doing Business 2015” hesabatına əsasən, Azərbaycan məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması nəticəsində 32 pillə irəliləyib

“Doing Business 2015” hesabatına əsasən, Azərbaycan məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması nəticəsində 32 pillə irəliləyib. Bu, ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə ən yüksək göstəricidir.

Qeyd edək ki, hazırda Azərbaycanda müasir avtomatlaşmış əsaslarla fəaliyyət göstərən sığorta-pensiya sistemi mövcuddur və informasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən əhaliyə təqdim olunan elektron xidmətlərin sayı daim genişləndirilir. “Elektron hökümət” portalının statistikasına əsasən DSMF-nin göstərdiyi elektron xidmətlər ən çox istifadə olunan xidmətlər sırasında ilk yerləri tutur.

Ötən dövr ərzində bütün zəruri işlər görülərək məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması tam başa çatdırılıb ki, bu da beynəlxalq təşkilatın reytinq göstəricisində öz əksini tapmışdır.

“Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi” elektron xidməti sığortaedənlər, o cümlədən işəgötürənlər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, torpaq pay mülkiyyətçiləri və digər sığortaedənlər tərəfindən məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi prosesini xeyli asanlaşdırmaqla yanaşı, bu sahədə şəffaflığın daha da artırılmasına xidmət edir.

Hesabatların elektron qaydada təqdim edilməsini nəzərdə tutan “Elektron hesabat” xidməti isə DSMF-nin sığortaedənlər tərəfindən ən fəal istifadə olunan elektron xidmət növlərindən biridir. Hazırda bütün ölkə üzrə iri və orta sahibkarlardan hesabatlar tam elektron qaydada qəbul edilir. Kiçik ödəniş edən, mühasibatlığı avtomatlaşdırılmamış torpaq pay mülkiyyətçiləri, fərdi sahibkarıq fəaliyyəti ilə məşğul olan şəxslər isə DSMF-nin yerli şöbələrində yaradılmış “Yardım masaları”nın xidmətindən yararlanmaqla öz hesabatlarını elektron formada təqdim etmək imkanına malikdirlər.

# E-satınalmalar və Avropa Təcrübəsi üzrə beynəlxalq seminar keçirildi

28.10.14 tarixdə Satınalmalar üzrə Dövlət Agentliyi Avropa İttifaqının İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı/SİQMA ilə birlikdə "Azərbaycanda e-satınalmalar və Avropa Təcrübəsi" mövzusunda seminar keçirilmişdir. Seminarın məqsədi dövlət satınalmaları sahəsində çalışan peşəkarlara Aİ-nin satınalmalar üzrə təcrübəsini və Azərbaycanda e-satınalmaların inkşaf etdirilməsi üzrə əhatə dairəsi ilə bağlı məlumatlandırmaq idi. Seminarda əsas diqqət e-satınalmaların imkan və məhdudiyyətlərinə və e-satınalmalarda müvəffəqiyyət qazanmaq üçün lazım olan praktik addımlara yönəlmişdi. Gün ərzində davam edən seminarda SİGMA ekspertləri və səlahiyyətli orqanlar tərəfindən satınalmalar üzrə əsas problemlər təqdim edilərək, Azərbaycanda mövcud olan durum təhlil edildi.

Seminarda Avropa ittifaqında e-satınalmalar, hüquqi baza və hazırkı təcrübə haqqında Aİ-nin nümayəndə heyəti Daniel Lvarsson, Azərbaycanda e-satınalmalar, hazırkı durum və inkşaf üçün perspektivlər mövzusunda elektron məlumat bazasının təşkili sektorunun nümayəndəsi Sahib Mustafayev, Azərbaycanda Elektron Hökumətin inkişafı haqqında, "Elektron Hökumət" portalının operatorunun nümayəndəsi çıxış etdilər. Məruzəçi çıxışında elektron hökumətin yaranması, elektron xidmətlərdən istifadə mədəniyyəti, həmçinin, Satınalmalar Üzrə Dövlət Agentliyinin portalda 2014-cü il satınalma planlarının yerləşdirilməsi, açıq tenderlər, kotirovka sorğuları, kotirovka sorğusu göndərmək, satınalma planları, təkliflər sorğuları, təkliflər sorğusu göndərmək, tender elanı göndərmək kimi 8 xidməti olduğunu qeyd etdi. Məruzəçi ona ünvanlanan autentifikasiya vasitələri və portalın təhlükəsizliyinin qorunması ilə bağlı sualları cavablandırdı.

Seminarda, həmçinin, xarici ölkə mütəxəssisləri Xorvatiya və Kosovo təcrübəsi və onun Azərbaycana uyğunluğu barədə çıxışlar etdilər. Seminar aktiv sual cavab və diskussiya şəraitində başa çatdı.

Qeyd edək ki, belə seminarlarda beynəlxalq təcrübələrin öyrənilməsinin informasiya mübadiləsində rolu əvəzsizdir.

# "İnformasiya və Kommunikasiya Texnologiyalarının Müasir Vəziyyəti və İnkişafi Perspektivləri" adlı Beynəlxalq Elmi-Texniki Konfrans öz işini başa vurdu



27 oktyabr tarixdə RYTN, Təhsil Nazirliyi və Azərbaycan Texniki Universitetinin təşkil etdiyi "İnformasiya və Kommunikasiya Texnologiyalarının Müasir Vəziyyəti və İnkişafi Perspektivləri" adlı Beynəlxalq Elmi-Texniki Konfrans keçirilmişdir.

Konfransının ikinci günündə informasiya-kommunikasiya texnologoyaları üzrə innovativ metodlardan, çözümlərdən bəhs edildi. Müasir informasiya sistemlərində informasiya təhlükəsizliyinin perspektivləri, eləcə də kibertəhlükələr və onların qarşısının alınması üçün müasir üsullar haqqında biliklər bazasının yaradılması, təhlükəsizlik əməliyyat mərkəzinin infrastrukturunun yaradılmasının prinsipləri şərh edildi.

"Elektron Hökumət" portalının operatoru Məlumat Hesablama Mərkəzinin nümayəndəsi prezentasiya üzrə çıxış edərək, "Azərbaycan vətəndaşları üçün elektron cəmiyyətin bu günü və sabahı" başlığı altında "Elektron Hökumət" layihəsi üzrə, o cümlədən "Elektron Hökumət" portalının yaradılma tarixi, əhəmiyyəti, gələcək perspektivləri və yeni layihələr haqda ətraflı məlumat verdi. Həmçinin, portalın vətəndaşlar üçün nəzərdə tutulan yenilikləri, portaldan istifadə statistikası barədə məruzə edildi. Portalının nümayəndəsi təlim iştirakçılarına e-imza, dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrləri barədə ətraflı məlumat verərək, ünvanlanan sualları cavablandırdı. Tədbir sual-cavab, diskusiya şəklində davam etdirildi.

Bu cür tədbirlərin təşkili müxtəlif informasiya-texnologiya strukturlarının gördüyü işlərin işıqlandırılması və maarifləndirmə baxımından böyük əhəmiyyətə malikdir. Hesab edirik ki, belə tədbirlər informasiya texnologiyaları üzrə gələcək innovasiyalara stimul verəcəkdir.

www.e-gov.az

# "BakuTel" sərgisi bu il 20 illik yubileyini qeyd edəcək




Ölkənin aparıcı ixtisaslaşdırılmış sərgilərindən biri, eyni zamanda Xəzər və Qafqaz regionlarının telekommunikasiya və informasiya texnologiyaları sahəsində ən böyük sərgisi - "BakuTel" Azərbaycan beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransı bu il öz yubileyini qeyd edəcək.

Artıq 20 ildir ki, "BakuTel" sərgisi hər il telekommunikasiya bazarının aparıcı subyektlərini öz meydançasında bir araya toplayaraq, İT məhsul və xidmətlərinin nümayiş etdirilməsi üçün əsas arena funksiyasını yerinə yetirir və burada möhkəm əlaqələr qurulur, yeni müəssisələr yaradılır. Azərbaycan Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) "BakuTel"in həm inkişafında, həm də təşəkkül tapmasında, eləcə də ona yeni təkan verilməsində sərgiyə yaxından dəstək göstərir.

Təşkilatçıları "Iteca Caspian" və onun tərəfdaşı "ITE Group Plc" şirkətləri olan sərgidə bu günə qədər 100-dən çox şirkətin iştirakı təsdiqlənib. İştirakçılar arasında aparıcı İKT şirkətləri, Azərbaycanın mobil rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və məşhur markaların distribüterləri var. Sərgidə bir sıra ölkələrin milli stendlərinin maraqlı iştirakı gözlənilir. Sözügedən milli stendlərin iştirakı Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəal dəstəyi çərçivəsində təşkil olunacaq.

Ənənəyə sadiq qalaraq, sərgi gənc mütəxəssislərin regionun İKT sektorunun bu ən böyük tədbiri çərçivəsində öz ixtira, proqram və xidmətləri haqqında danışması üçün imkan yaradır. Bununla əlaqədar olaraq, sərgidə "startap"lara (yeni fəaliyyətə başlayan şirkətlərə) böyük diqqət ayrılıb və bu il də onların sərgidə iştirakı üçün xüsusi stendlər təşkil olunacaq. Ənənəvi olaraq, "Bakutel 2014" sərgisi konfrans, seminarlar, dəyirmi masalar, biznes və internet forumları və bir çox digər tədbirləri ehtiva edən maraqlı işgüzar proqramı ilə fərqlənəcək.

Sərginin ərazisində həm də ən son oyun texnologiyalarından istifadə olunan oyun zonası yerləşəcək. Həmçinin, sərginin 20 illik yubileyi ilə əlaqədar əlavə tədbirlər proqramı planlaşdırılaraq həyata keçiriləcək və bu proqram özünün koloriti və rəngarəngliyi ilə həm iştirakçıları, həm də ziyarətçiləri sevindirməklə yanaşı, sərgidə xüsusi təntənə və bayram əhval-ruhiyyəsi yaradacaq.

"Elektron Hökumət" portalı sərgidə öz stendi ilə iştirak edəcək, bir sıra yenilikləri təqdim edəcəkdir. Sərgi zamanı müxtəlif viktorinaların keçirilməsi, elektron xidmətlərdən istifadə edilməklə ödənişsiz e-imza kartlarının əldə edilməsi planlaşdırılır.

Qeyd edək ki, sərgi 2-5 dekabr tarixlərində təşkil olunacaq.

# Mənim elektron hökumətim müsabiqəsi başa çatır




Hörmətli müsabiqə iştirakçıları!

1. Müsabiqədə jurnalistlərlə yanaşı, elmi işçilər, mütəxəssislər və elektron hökumətlə maraqlanan 18 yaşından yuxarı şəxslər iştirak edə bilər.
2. Müsabiqədə iştirak etmək istəyənlər ilk növbədə www.e-gov.az portalında qeydiyyatdan keçməli, məqalələri və ya video materialları göndərərkən qeydiyyat nömrəsini e-məktuba əlavə etməlidir. Qeydiyyat 2014-cü il noyabrın 10-dək aparılacaq.
3. Hər iştirakçı müsabiqəyə yalnız bir yazı və bir video süjet təqdim edə bilər.
4. Yazı həftədə ən azı bir dəfə dərc olunan mətbu orqanda və ya informasiya saytında dərc edilməlidir.
5. Hazırlanan video materiallar isə müsabiqəyə təqdim olunana qədər heç bir KİV-də nümayiş olunmamalıdır.
6. Video 1 -5 dəqiqəlik olmalıdır.
7. Məqalə 8000 -14000 simvol həcmində olmalıdır.
8. Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur;
9. Hər bir məqalə və süjet də "Elektron hökumət" portalının ünvanının (www.e-gov.az) göstərilməsi əsas şərtlərdəndir.
10. Qiymətləndirmə zamanı iştirakçının "Elektron hökumət" portalından istifadə fəallığını, bu sahədə mövcud olan materiallara, xarici mənbələrə istinadları nəzərə alınacaqdır.

Zəng mərkəzi: 012 157
Fax: 012 565 14 52
Müsabiqə üçün yazılmış məqalələr və ya video sujet bu ünvana göndərilməlidir: musabiqa@rabita.az

## "Elektron Hökumət" Portalı üzərindən təqdim olunan daha bir elektron xidmət üzrə video-təlimat hazırlanaraq istifadəçilərə təqdim edildi



Məlumat Hesablama Mərkəzinin mütəxəssisləri "Elektron Hökumət" Portalı tərəfindən təqdim olunan elektron xidmətlərdən istifadəni asanlaşdırmaq məqsədilə mütəmadi olaraq video-təlimatlar hazırlayaraq istifadəçilərə təqdim edir.

Növbəti video-təlimat Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Elektron Hökumət" Portalı vasitəsilə təqdim etdiyi "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" elektron xidməti üçün hazırlanmışdır. Video-təlimatda elektron xidmətdən istifadə qaydaları üzrə metodik göstərişlər öz əksini tapmışdır.

## Dövlət İnformasiya Ehtiyatları və Fərdi Məlumatların İnformasiya Sistemləri dövlət reyestrlərinə indiyədək 223 məlumat daxil edilib

Noyabrın 1-i tarixinə bütün qurumlar üzrə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin dövlət reyestrlərinə daxil edilmiş məlumatların sayı 223-yə çatıb.

Bunlardan 75-i Dövlət İnformasiya Ehtiyatları, 148-i isə Fərdi Məlumatların İnformasiya Sistemlərinin payına düşür.

Qeyd edək ki, dövlət reyestrləri "Elektron hökumət" sisteminin tərkib hissəsi hesab olunur və bu, "Elektron hökumət portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Prezidentinin 5 fevral 2013-cü il tarixli Fərmanında da öz əksini tapıb.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə cərimə tətbiq edilir.

## Dövlət qurumlarında informasiya ehtiyatlarının və sistemlərinin monitorinqi yekunlaşmaq üzrədir

"Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 3.1.56-cı yarımbəndinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 may 2010-cu il tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında Əsasnamə"nin 4.1-ci yarımbəndinin tələblərinə əsasən, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən dövlət qurumlarında müvafiq monitorinqlər keçirilmişdir və proses yekunlaşmaq üzrədir.

Məlum olduğu kimi, hal hazırda 200-dən artıq fərdi məlumatların informasiya sistemləri dövlət reyestrində qeydiyyata alınmışdır. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 7.1.3-cü bəndinə əsasən subyektin "informasiya sistemində özü barəsində toplanılmış fərdi məlumatların məzmunu ilə tanış olmaq" hüquqları vardır. Qanunun 12.1 bəndində göstərilir ki, "Mülkiyyətçi və ya operator ödənişsiz olaraq subyektə onun haqqında məlumatları təqdim etməli, eləcə də bu Qanunun 7.1-ci maddəsində göstərilmiş hüquqlarını təmin etməlidir."

Dövlət orqanlarında informasiya sistemlərinin monitorinqi zamanı məlum olmuşdur ki, bir sıra hallarda subyekt haqqında məlumatların ilkin mənbədən formalaşdırılması natamam, təhrif olunmuş formada əks olunmuş və ya ümumiyyətlə əksini tapmamışdır, FİN-ə uyğunlaşdırılmamışdır.

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun uyğun maddələrinin icrası və informasiya sistemlərinin formalaşdırılmasının bəyan olunmuş məqsədlərə uyğunlaşdırılması məqsədilə MHM tərəfindən monitorinqin nəticələri öyrənilir və təkliflər hazırlanır.

www.e-gov.az

# İnformasiya sistemlərinin mülkiyyətçilərinin nəzərinə: Elektron Hökumət portalına inteqrasiya edilmək üçün müvafiq WEB servislər hazırlanaraq portalın operatoruna təqdim edilməlidir




Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 23 may 2001 tarixli 429 nömrəli Fərmanının icrası ilə əlaqədar Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarı ilə "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər" təsdiq edilmişdir.

Fərdi məlumatlar haqqında qanunun 7.1.3-cü bəndinə əsasən subyektin " informasiya sistemində özü barəsində toplanılmış fərdi məlumatların məzmunu ilə tanış olmaq " hüquqları vardır. Qanunun 12.1 bəndində isə göstərilir :

“ Mülkiyyətçi və ya operator ödənişsiz olaraq subyektə onun haqqında məlumatları təqdim etməli, eləcə də bu Qanunun 7.1-ci maddəsində göstərilmiş hüquqlarını təmin etməlidir. "

İnformasiya sistemlərinin portala qoşulmasını sürətləndirmək, informasiya sistemlərində subyektlər haqda toplanmış məlumatların subyektə təqdim edilməsi üçün, fərdi məlumatlar haqda qanunun tələblərinə uyğun olaraq elektron hökumət portalında web servislər bölməsi yaradılır. Servislər vasitəsilə subyektlər özləri haqda toplanmış məlumatların dəqiqliyinə nəzarət etmək imkanı əldə etmiş olacaqlar.

Nazirlər Kabinetinin müvafiq Qərarının 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıda nəzərdə tutulan informasiya sistemlərinin və ehtiyatlarının "Elektron hökumət" portalına qoşulması məqsədilə informasiya sistemləri mülkiyyətçiləri tərəfindən müvafiq web servislər, onların işlətmə qaydaları hazırlanaraq portalın operatoruna təqdim edilməlidir:

- əlaqə parametrləri (Connection parameters),
- struktur və tipi (Structures and types),
- kod tipi və axtarış əməliyyatı dəyərləri (Code types and values lookup operations),
- əsas əməliyyatlar (Main operations)

Web servislərin hazırlanması zamanı 1) FİN-i daxil etdikdə subyektə aid konfidensial olmayan məlumatların hamısını, 2) konfidensial olmayan məlumatları daxil etməklə əks sorğu yolu ilə FİN-i əldə etmək mümkün olmaqla hazırlanmalıdır.






# Elektron məhkəmə sisteminin yaradılması ilə bağlı Dünya Bankı ilə yeni layihə imzalanıb

Dünya Bankı (DB) ilə həyata keçirilən layihə çərçivəsində Azərbaycanda hakimlər, ədliyyə və məhkəmə aparatı işçilərinin informasiya və kommunikasiya texnologiyaları (İKT) üzrə biliklərinin artırılması məqsədi ilə 1.500-dən artıq şəxs təlimlərə cəlb olunub.

Həmçinin Konstitusiya və Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin olunub, məhkəmə sisteminin vahid internet portalı yaradılıb.

Ədliyyə Nazirliyindən bildirilib ki, Azərbaycanda aparılan məhkəmə-hüquq islahatlarının tərəqqisini və uğurlu nəticələrini görən DB maliyyə dəstəyinin göstərilməsinə dair təşəbbüs irəli sürüb və 2006-2014-cü illər üzrə həyata keçirilən Ədliyyə sisteminin müasirləşdirilməsinə dair birgə layihələr çərçivəsində 30-dək məhkəmənin yerləşəcəyi müasir bina və komplekslərin layihələri hazırlanıb, 4 rayon məhkəməsi üçün ən müasir İKT-lərlə təchiz olunmuş yeni binalar tikilərək istifadəyə verilib, 7 məhkəmə üçün bina və komplekslərin inşası başa çatmaq üzrədir. Dünya Bankı tərəfindən ən uğurlu layihələrdən hesab olunan sözügedən layihə "Azərbaycan Respublikası vətəndaşlarına yüksəksəviyyəli xidmətlərin göstərilməsi məqsədi ilə müasir infrastrukturun yaradılması" nominasiyasında qalib gəlib və müxtəlif dövlətlər ölkəmizin bu təcrübəsindən bəhrələnməyə maraq göstəriblər. Layihənin uğurlu nəticələri Dünya Bankı ilə əməkdaşlığın daha da genişləndirilməsinə zəmin yaradıb və yeni daha irihəcmli birgə layihənin keçirilməsi barədə razılıq əldə olunub.

Bununla əlaqədar ölkəmizin yüksəksəviyyəli nümayəndə heyəti Dünya Bankının Vaşinqtonda yerləşən iqamətgahına, eləcə də bankın peşəkar mütəxəssislərindən ibarət bir neçə missiya Bakıda səfər edib, müvafiq dövlət orqanları ilə müzakirələr aparılaraq layihə razılaşdırılıb. Beləliklə, Nazirlər Kabinetində Baş nazirin müavini Abid Şərifovun yanında Dünya Bankı və Azərbaycan Hökuməti arasında "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" adlı yeni layihənin imzalanması mərasimi keçirilib.

Layihəni Azərbaycan Respublikası adından ədliyyə naziri Fikrət Məmmədov, Dünya Bankı adından Azərbaycan üzrə meneceri xanım Larisa Leşçenko imzalayıblar. Layihənin keçirilməsində məqsəd məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmə sisteminin yaradılması, ədalət mühakiməsinin həyata keçirilməsinin sürətləndirilməsi, elektron hüquqi xidmətlərin genişləndirilməsi ilə ədliyyə sisteminə dair vətəndaşların məmnunluğunun artırılmasını təmin etməkdir.

Layihə çərçivəsində yeni məhkəmə və məhkəmə komplekslərinin tikintisi, elektron məhkəmə informasiya sisteminin və digər qabaqcıl İKT-lərin geniş tətbiqi, ədliyyə işçiləri və hakimlərin peşəkarlığının yüksəldilməsi, hüququn müxtəlif sahələri üzrə vətəndaşların məlumatlılığının artırılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

# Niderlandın elektron kənd təsərrüfatı sistemi öyrənilir

Azərbaycan Niderlandın elektron kənd təsərrüfatı sistemini öyrənir. Bu məqsədlə nazir müavini Seyfəddin Talıbovun rəhbərliyi ilə Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti Niderland Krallığında işgüzar səfərdə olub.

Səfərdə kənd təsərrüfatının idarə edilməsində müasir texnologiyaların, coğrafi informasiya sistemlərinin tətbiqi sahəsində məlumatlar, torpaqların konsolidasiyası, su idarəçiliyinin tətbiqi və əldə olunmuş nailiyyətlərlə tanış olunub. Səfər çərçivəsində baş tutan görüşlərdə Hollandiya təşkilatlarının fəaliyyəti, gördükləri işlər, həyata keçirdikləri layihələr haqqında məlumatlar verilib və Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi ilə qurumlar arasında qarşılıqlı əməkdaşlığın davam etdirilməsi qərara alınıb.

Eləcə də Azərbaycanın bu ölkədəki səfiri Mir-Həmzə Əfəndiyev Hollandiya ilə əməkdaşlığı yüksək qiymətləndirərək bildirib ki, Niderland Krallığında innovativ texnologiyaların tətbiqi, səmərəlilik, təlimlər, idarəetmə sahəsində effektiv metodların səviyyəsi çox yüksəkdir və bu təcrübələrin öyrənilməsi və ölkəmizdə tətbiqi məqsədəuyğundur. Nümayəndə heyəti Hollandiyanın ən müasir İKT əsasında yaradılan heyvandarlıq kompleksi, kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, tingçilik və toxumçuluq müəssisələrində olublar. Müəssisələr öz fəaliyyətləri ilə əlaqədar geniş təqdimatlar keçiriblər. Onların təcrübələri, əldə etdikləri nailiyyətlərin öyrənilməsi və ölkəmizdə tətbiqi məqsədilə qarşılıqlı əməkdaşlığın davam etdirilməsi qərara alınıb.

Eyni zamanda səfər çərçivəsində Limburq vilayətinin İqtisadi məsələlər və torpağın inkişafı üzrə regional naziri cənab Tvan Beurskerslə və regionun digər rəsmi şəxsləri ilə görüşlər keçirilib. Qarşı tərəf Niderland nümayəndə heyətinin 2014-cü ilin aprel ayında Bakıya səfərindən və Azərbaycanın dinamik inkişafından məmnun qaldığını bildirib, Niderland təcrübəsinin Azərbaycanda tətbiq edilməsinə hərtərəfli dəstək göstərməyə hazır olduqlarını qeyd ediblər.

Nazir söyləyib ki, hökumətlərarası razılaşmalara görə nəzərdə tutulan Azərbaycan Biznesin İnkişafı Mərkəzinin yaradılması layihəsinin yaxın gələcəkdə reallaşdırılması Azərbaycan Respublikası ilə Niderland Krallığı, həmçinin Almaniya, Belçika, Lüksemburq kimi ölkələrlə əməkdaşlığın və ticarət dövriyyəsinin xeyli dərəcədə inkişaf etdirilməsinə təkan verəcəkdir.

www.e-gov.az

## 01.10.2014 – 30.10.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | **256232** |
| 2 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 78351 |
| 3 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 44519 |
| 4 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 26247 |
| 5 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 19175 |
| 6 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 17788 |
| 7 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8638 |
| 8 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8576 |
| 9 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8322 |
| 10 | Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi | Elektron Hökumət Portalı | 6505 |
| 11 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 5937 |
| 12 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 4591 |
| 13 | Dövlət qulluğuna qəbul üzrə qeydiyyat üçün müraciətin və sənədlərin qəbulu | Prezident Yanında Dövlət Qulluğu Məsələləri Üzrə Komissiya | 4527 |
| 14 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Hökumət Portalı | 4357 |
| 15 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3853 |
| 16 | AzDataCom internet xidmətinə qoşulma üçün sifariş | RYTN | 3207 |
| 17 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 2958 |
| 18 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 2709 |
| 19 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2564 |
| 20 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2512 |

## 01.10.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 75 | 148 | 223 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.10.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 15966 | 4207 | 5854 | 26027 |

## 2014-cü ilin oktyabr ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 302191 |
| 2 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 43 | 137019 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 13 | 65131 |
| 4 | Elektron Hökumət Portalı | 3 | 12640 |
| 5 | Əmlak Məsələləri Dövlət Komitəsi | 38 | 7188 |
| 6 | Prezident Yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 6 | 5774 |
| 7 | Tələbə Qəbulu üzrə Dövlət Komitəsi | 14 | 2846 |
| 8 | Təhsil Nazirliyi | 3 | 3425 |
| 9 | Daxili İşlər Nazirliyi | 2 | 2850 |
| 10 | Vergilər Nazirliyi | 6 | 1120 |
| 11 | "AzərEnerji" ASC | 2 | 1099 |
| 12 | "Azərsu" ASC | 2 | 949 |
| 13 | Mərkəzi Seçki Komissiyası | 7 | 901 |
| 14 | Səhiyyə Nazirliyi | 21 | 724 |
| 15 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 645 |
| 16 | Dövlət Statistika Komitəsi | 5 | 616 |
| 17 | Ədliyyə Nazirliyi | 11 | 548 |
| 18 | Fövqəladə Hallar Nazirliyi | 3 | 486 |
| 19 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 446 |
| 20 | Dövlət Gömrük Komitəsi | 5 | 398 |
| 21 | Milli Arxiv İdarəsi | 2 | 367 |
| 22 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 269 |
| 23 | Nəqliyyat Nazirliyi | 4 | 148 |
| 24 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 131 |
| 25 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 113 |
| 26 | Xarici İşlər Nazirliyi | 1 | 94 |
| 27 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 85 |
| 28 | Dövlət Sərhəd Xidməti | 2 | 83 |
| 29 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 71 |
| 30 | Dövlət Dəniz Administrasiyası | 17 | 68 |
| 31 | Dövlət Miqrasiya Xidməti | 1 | 65 |
| 32 | Energetika Nazirliyi | 6 | 60 |
| 33 | Baş Prokurorluq | 1 | 59 |
| 34 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 13 | 56 |
| 35 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 52 |
| 36 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 10 | 47 |
| 37 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 43 |
| 38 | Gənclər və İdman Nazirliyi | 4 | 42 |
| 39 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 41 |
| 40 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 37 |
| 41 | Müəllif Hüquqları Agentliyi | 5 | 30 |
| 42 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 14 |
| | **CƏMİ** | **290** | **541787** |

www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.11.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 12 | 18 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 60 | 49 | 52 | 58 | 57 |
| 8 | Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 11 | 1 | 0 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 14 | 12 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 2 | 2 | 27 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 31 | 31 | 31 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 10 | 34 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 25 | 29 | 29 | 27 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 13 | 14 | 14 | 14 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 8 | 2 | 2 |
| 37-1 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **446** | **297** | **368** | **460** | **391** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | |
|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | 2 | 3 | |
| 3 | "Azərenerji" ASC | 2 | 2 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | 6 | 9 | |
| 5 | “Elektron hökumət” portalı | 2 | 0 | |
| 6 | Baş Prokurorluq | 1 | 1 | |
| | **CƏMİ:** | **15** | **17** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **YEKUN** | 446 | 297 | 383 | 477 | 391 |

# "Elektron hökumət" portalına daxil olanların sayı 1003372 nəfərə çatdı

ŞƏKİL 1




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin oktyabr ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 2,959,944 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 1,003,372 nəfər olub. Belə ki, 1,016,811 nəfər ümumən 2,959,944 dəfə portala baxıb və 5,597,818 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 10,441,045 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 29 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 35.4%-ni yeni istifadəçilər, 64.6%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün sentyabr ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 488,692 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 314,175 nəfər olub. Həmin şəxslər 3,209,062 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 549,971 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 12 dəqiqə 06 saniyə təşkil edib. Avqust ayı ərzində portala müraciət edənlərin 21.7%-ni yeni istifadəçilər, 78.3%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 130,142-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 382 olub.

ŞƏKİL 2




© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az